## S İ Y A S Ə T

**UOT 32**

# AZƏRBAYCAN BÖYÜK ORTA ŞƏRQİN PERSPEKTİVLİ ÖLKƏSİ KİMİ

**İqrar Cəfər oğlu MƏMMƏDLİ**

*AMEA Hüquq və İnsan Haqları İnstitutunun böyük elmi işçisi*

iqrar_c@yahoo.com

## XÜLASƏ

Məqalədə dünyanın ən önəmli geosiyasi məkanlarından biri olan Böyük Orta Şərqin bir sıra xüsusiyyətlərinə toxunulur və hazırda bu regionda baş verən siyasi proseslər təhlil edilir. Göstərilir ki, Azərbaycanın da yerləşdiyi bu region geosiyasi və geoiqtisadi əhəmiyyətinə görə həmişə diqqət mərkəzində olmuşdur.

Müəllifin fikrincə, Azərbaycan fiziki-coğrafi baxımdan həm qərbdə, həm də şərqdə yerləşir və ərazisinin müəyyən hissəsi Avropa qitəsinin payına düşdüyünə görə, o, Avropa ölkəsi sayıla bilər. 1993-cü ildən etibarən Azərbaycan dövləti beynəlxalq münasibətlər sahəsində strateji məqsəd və taktiki vəzifələri, xarici təhlükəsizlik siyasətinin prioritetlərini, tarazlaşdırılmış xarici siyasət kursunu müəyyənləşdirmişdir. Azərbaycan Böyük Orta Şərq geosiyasi məkanına daxil olan Qafqaz regionunda lider dövlətdir.

Məqalədə Azərbaycanın geosiyasi və geoiqtisadi əhəmiyyətinin tək region ölkələri üçün deyil, həmçinin digər ölkələr üçün də vacib olduğu qeyd edilir.

**Açar sözlər**: geosiyasi məkan, Böyük Orta Şərq, geosiyasi mövqe, Xəzər dənizi hövzəsi, TRASEKA proqramı

## АЗЕРБАЙДЖАН КАК ПЕРСПЕКТИВНАЯ СТРАНА БОЛЬШОГО БЛИЖНЕГО ВОСТОКА

## РЕЗЮМЕ

Статья посвящена особенностям одного из наиболее значимых геополитических пространств мира - Большого Ближнего Востока и анализу происходящих политических процессов в этом регионе. Отмечается, что находящийся в данном регионе, Азербайджан всегда был в центре внимания в силу своей геополитической и геоэкономической важности.

По мнению автора, географически Азербайджан располагается как на Западе, так и на Востоке, и учитывая, что частично его территория находится на европейском континенте, Азербайджан можно считать европейской страной. Начиная с 1993 года, стратегические цели и тактические задачи азербайджанского государства в области международных отношений, придерживаются курса приоритетов безопасности и баланса внешней политики. Азербайджан является лидирующим государством в Кавказском регионе, который входит в геополитическое пространство Большого Ближнего Востока.

В статье также подчеркивается не только региональная, но и мировая геополитическая и геоэкономическая важность Азербайджана.

**Ключевые слова**: геополитическое пространство, Большой Средний Восток, геополитическое положение, бассейн Каспийского моря, программа ТРАСЕКА

## AZERBAIJAN AS A PERSPECTIVE COUNTRY OF THE GREATER MIDDLE EAST

## SUMMARY

The article is devoted to the features of one of the most important geopolitical space of the world - the Greater Middle East and the analysis of political processes in the region. It is noted that being in this region, Azerbaijan has always been in the spotlight because of its geopolitical and geo-economic significance.

According to the author, Azerbaijan is geographically located in the West and in the East, and taking into account that part of its territory is in Europe, Azerbaijan can be considered as a European country. Since 1993, the strategic objectives and tactical missions of the Azerbaijani government in the field of international relations took the course of the security and the balance priorities of foreign policy. Azerbaijan is a leading state in the Caucasus region, which is included in the geopolitical space of the Greater Middle East. The article also highlights not only regional but also global geopolitical and geo-economic importance of Azerbaijan.

**Keywords:** geopolitical space, Greater Middle East, geopolitical position, the Caspian Sea basin, TRACECA program

**Giriş.** XXI yüzillik dünyaya qloballaşma əsri kimi daxil olmuşdur. Yaşadığımız hazırkı dövr dünya ölkələri üçün radikal sosial, iqtisadi, siyasi, mədəni və mənəvi dəyişikliklərlə səciyyələnir. Dövlətlər arasındakı sərhədlərin şəffaflaşması, müxtəlif xalqların bir-birinə inteqrasiya etməsi, ikitərəfli münasibətlərin genişlənməsi və dərinləşməsi müasir dövrümüzün xarakterik cəhətlə-

rindəndir. Çağdaş dünyanın inkişafı prosesində indiki tarixi mərhələnin başlıca meyilləri qloballaşma və iqtisadi, mədəni inteqrasiyadır. Müstəqil Azərbaycan Respublikası da ümumdünya inteqrasiya və qloballaşma cərəyanlarından kənarda qalmamışdır.

Azərbaycan Respublikası da qloballaşmanın inkişafına öz töhfəsini verir. Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Şərq ilə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir. Azərbaycan Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün səylər göstərir. Dünyanın bir çox dövlətlərinin hərtərəfli inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var. Bunlar səmərəli beynəlxalq əməkdaşlığa təkan verəcək və qlobal inkişafa müsbət təsir göstərəcəkdir (6). Məqalədə Azərbaycan Respublikasının da yerləşdiyi Böyük Orta Şərq geosiyasi regionunda hazırda baş verən hadisələr və ölkəmizin region üçün perspektiv əhəmiyyəti təhlil olunmuşdur.

**Böyük Orta Şərq regionunun xüsusiyyətləri.** Dünyanın ən önəmli geosiyasi məkanlarından biri olan Böyük Orta Şərq Azərbaycanın da daxil olduğu 26 dövləti əhatə edir. ABŞ-ın ilk dəfə "Böyük Orta Şərq" terminini irəli sürməsi və bu regiona maraq göstərilməsi, əsasən, islam dövlətləri olan bu region ölkələrində demokratiyanın və sabitliyin inkişaf etdirilməsi arzusu ilə əsaslandırılırdı. Lakin planetin bu hissəsi hazırda münaqişə ocaqları və daxili müharibələrin uzunmüddətli olması ilə səciyyələnir. Belə ki, ABŞ-ın fəallığına baxmayaraq, İraqda, Suriyada və Əfqanıstanda qeyri-sabitlik davam edir. İslamçı radikalların nəzarət etdiyi ərazilərdə - Mərkəzi İraq, Suriya, Pakistan, Cənubi Əfqanıstanda terror hadisələri tüğyan edir. Suriyada hadisələr vətəndaş müharibəsi həddinə çatmışdır. İŞİD silahlılarının İraq və Suriya ərazisində qanlı fəaliyyəti dinc əhalinin kütləvi şəkildə qaçqın vəziyyətinə düşməsinə səbəb olmuşdur. Misirdə cəmi bir il fəaliyyət göstərən prezident Muhammad Mursi devrilmiş və M.Mursi haqqında ölüm hökmü çıxarılmışdır. Ölkənin yeni prezidenti Əbdülfəttah əs-Sisidir. Yəməndə daxili ictimai-siyasi vəziyyət kəskinləşmişdir. Bu ölkə strateji ərazidə - Qırmızı dənizlə Ədən körfəzini birləşdirən ensiz Bab əl-Məndab boğazının üstündə yerləşir. Bu dar boğazdan isə əksər qlobal neft daşımaları keçir. Husilərin və keçmiş prezident Əli Abdullah Saleh tərəfdarlarının paytaxt Sənanı ələ keçirməsindən sonra başlamış münaqişə regionun ən yoxsul ərəb ölkəsindən 4 mindən çox insanın həyatına son qoymuşdur. Bütün bunlarla bərabər, digər tərəfdən, diqqətə çatdırmaq istərdik ki, möhkəm sabitliyin bərqərar olduğu ölkələr monarxiya rejimli dövlətlərdir.

Böyük Orta Şərq regionunun geosiyasi mövqeyi ilə bağlı qeyd etmək lazımdır ki, bu region üç qitənin – Asiya, Avropa, Afrika və iki okean hövzəsinin qovuşuğunda yerləşir. Enlik istiqamətində 4400 km (Pamir dağlarından

Aralıq dənizindəki İmroz adasınadək), meridian boyu 3300 km (Qara dənizdəki Sinop burnundan Bab-əl-Məndəb boğazınadək) məsafədə uzanır. Yaxın və Orta Şərq regionunun Aralıq, Xəzər, Qara və Qırmızı dənizlərə çıxışı vardır. Bu isə bir tərəfdən onun Cənubi Qafqaz bölgəsinə, Rusiyanın daxili rayonlarına təsirinin artmasına imkan yaradır, digər tərəfdən regionu Rusiyanın geosiyasi maraqlarının «hədəfinə» çevirir.

Azərbaycanın strateji cəhətdən əlverişli ərazidə yerləşməsi, Avropa və Asiya qitələrinin qovuşduğu bu ərazinin geosiyasi və geoiqtisadi əhəmiyyəti hələ qədim dövrlərdən müxtəlif dövlətlərin, səyyahların, tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Azərbaycanın sələfi olan Albaniyanın ilk orta əsrlərdə xarici siyasətinə, yadellilərə qarşı mübarizəsinə və hərbi tarixinə dair müxtəlif ölü dilli qaynaqlarda olan materialların araşdırılması bizə bütün aydınlığı ilə imkan verir qeyd edək ki, Albaniya dövləti bütün ilk orta əsrlər dövründə müxtəlif işğalçılara, əsasən isə Sasani, Roma-Bizans imperiyalarının və Ərəb Xilafətinin kəskin irticaçı hücumlarına və onların xarici ideoloji siyasətlərinə qarşı daim siyasi və hərbi mübarizə aparmışdır. Bu mübarizələrdə Albaniya dövləti həmişə müstəqil xarici siyasət aparır, yeri gəldikdə isə qonşu ölkələrlə, o cümlədən İberiyanın və Ermənistanın hakim dairələri ilə sıx ittifaqa girib, həm şimaldan, həmçinin də cənubdan olan yadelli işğalçılara qarşı mübarizə aparmalı olmuşdur.

Qafqaz ölkələrinin bu mübarizəsində Azərbaycanın (Albaniya) ərazisi əsas hərbi və siyasi arenaya çevrilmişdi, ona görə ki, Albaniya ərazisinin çox hissəsi indiki Azərbaycanın əsas hissəsini təşkil edirdi və digər tərəfdən isə bura Böyük Qafqaz dağlarından və Çola-Dərbənd keçidindən keçən, strateji cəhətdən çox əhəmiyyətli yolu özündə birləşdirmişdi (11, s. 272).

Ötən əsrin axırlarında Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə demokratik, hüquqi dövlət quruculuğu yolu ilə getməyə başladı. 1993-cü ildə Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gələrək ölkəni dünyanın siyasi xəritəsindən silinməkdən, bir dövlət olaraq parçalanmaqdan xilas etdi. Dövlətimizin bütün sahələrində əsaslı islahatlara qədəm qoyuldu və daxili ictimai-siyasi sabitlik bərqərar oldu. Məhz həmin dövrdən Azərbaycan Respublikasının xarici siyasətində milli maraqlar təmin edildi. Heydər Əliyevin rəhbərliyi altında ölkəmiz beynəlxalq münasibətlərdə fəal iştirak edərək beynəlxalq aləmdə öz layiqli yerini tutdu. Dövlət başçısının dəstəyi ilə Azərbaycanın xarici siyasi prioritetləri – xarici siyasətin əsasları formalaşdırıldı. Hələ 1993-cü il oktyabr ayının 10-da Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı keçirilən inauqurasiya mərasimində bildirmişdi ki, respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Bu xarici siyasət ilk növbədə dövlətimizin müstəqilliyini təmin etməyə yönəldilməlidir. Ona görə də Heydər Əliyev dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr

yaratmağı və inkişaf etdirməyi məqsədəuyğun hesab edirdi. Bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə olunmalıdır [7, s.16). Məhz 1993-cü ildən etibarən Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycan dövləti beynəlxalq münasibətlər sahəsində strateji məqsəd və taktiki vəzifələr, xarici aləmlə əlaqələr, xarici təhlükəsizlik siyasətinin prioritetləri, tarazlaşdırılmış xarici siyasət kursunu müəyyənləşdirdi. Ölkənin rəhbəri 29 sentyabr 1994-cü ildə BMT Baş Məclisinin 49-cu sessiyasında çıxış edərkən demişdi ki, biz bir çox dövlətlərin böyük marağını doğuran ərazidə - Avropa və Asiyanın coğrafi-siyasi qovuşuğunda yerləşərək, geniş təbii ehtiyatlara və böyük sənaye potensialına malik olaraq, Azərbaycan xalqının qəti əzminə və inamına arxalanaraq öz müstəqilliyimizin möhkəmləndirilməsinə və demokratik islahatların, bazar islahatlarının həyata keçirilməsinə doğru yönəldilmiş bu strateji xətti aparırıq (9). Heydər Əliyev tərəfindən çoxvektorlu, tarazlaşdırılmış və praqmatik xarici siyasətin əsası qoyulmuşdur və bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin önəm verdiyi və uğurla davam etdirdiyi siyasətdir.

Ermənistan dövlətinin silahlı təcavüzünün, işğalçı dövlətin təhriki və dəstəyi ilə ölkəmizin Dağlıq Qarabağ regionunda baş qaldırmış aqressiv etnik separatçılığın qarşısının alınması, onun ağır nəticələrinin aradan qaldırılması, işğal altında olan ərazilərdə dövlət suverenliyinin bərpa edilməsi və ölkənin ərazi bütövlüyünün təmin edilməsi məqsədilə müvafiq beynəlxalq tribunalara çıxış əldə etmək və bu problemlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq Azərbaycanın xarici siyasətinin başlıca məqsədlərindən biri olmuşdur.

Dövlət müstəqilliyinin gücləndirilməsi, ölkənin beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi, siyasi və iqtisadi inkişafının təmin edilməsi, müasir texnologiyalara çıxış əldə edilməsi, xarici investisiyaların qoyuluşuna nail olunması Azərbaycanın qarşısında duran əsas vəzifələrdəndir.

Bu məqsəd və vəzifələrə nail olmaq üçün dünya ictimaiyyətinə inteqrasiya, müxtəlif beynəlxalq təşkilatlarla siyasi, iqtisadi və sosial sahələrdə sıx əməkdaşlıq əlaqələrinin qurulması Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Öz növbəsində, dünyanın aparıcı dövlətləri – ABŞ, Avropa İttifaqı ölkələri və s. təbii enerji ehtiyatları ilə zəngin olan Xəzər hövzəsinə, o cümlədən Azərbaycana ciddi maraq göstərməyə başlamış və Azərbaycanın yeni neft siyasətinə dəstək nümayiş etdirmişlər. Bu dəstək Azərbaycan üçün vacib əhəmiyyət kəsb edirdi və ölkəmiz bu dəstəkdən dövlət müstəqilliyinin möhkəmləndirilməsi, dövlət quruculuğu, siyasi, sosial, iqtisadi sahələrdə inkişafa nail olunması, müasir beynəlxalq standartlara cavab verən milli qanunvericilik bazasının formalaşdırılması üçün istifadə etməkdə maraqlı idi.

Şimal-Cənub və Şərq-Qərb strateji xətlərinin kəsiyində yerləşən Cənubi Qafqaz dövlətləri, xüsusən də təbii enerji ehtiyatları ilə zəngin olan Azərbaycan Respublikası ilə əməkdaşlığın vacibiyi Avropa İttifaqı üçün də, Şərq ölkələri

üçün də vacibdir. Belə ki, bu əməkdaşlıq Avropa ölkələrinə təbii enerji daşıyıcılarının alternativ yollarla nəqli və onların enerji təhlükəsizliyinin təmin edilməsi, Avropa ilə Asiya ölkələri arasında malların ucuz və təhlükəsiz daşınması üçün Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin formalaşması, müasir texnologiyaların yeni müstəqillik əldə etmiş dövlətlərdə tətbiq edilməsi, demokratik dəyərlərin bu ölkələrə genişlənməsini əhatə edir.

1995-ci ildə ümumxalq referendumu yolu ilə qəbul edilən Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasında xarici siyasətin konseptual əsasları yaradılmışdır. Əsas Qanunun 10-cu maddəsini nümunə göstərmək olar. Beynəlxalq münasibətlərin prinsiplərinin əks olunduğu bu maddədə yazılır: "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur". 1918-ci ildə yaradılan və cəmi 23 ay mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi müasir Azərbaycan Respublikası demokratiyaya sadiqliyini, qanunun aliliyini dəstəklədiyini, Avropa standartlarını və beynəlxalq hüquq norma və prinsiplərini əldə rəhbər tutduğunu dəfələrlə bəyan etmişdir. Dövlətimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də məhz beynəlxalq hüquq normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü əsasında tənzimlənməsini dəstəkləyir. Ölkəmiz dünyanın bütün dövlətləri ilə ikitərəfli, qarşılıqlı sərfəli dostluq münasibətləri saxlanmasının tərəfdarıdır və bunu real olaraq həyata keçirir. Azərbaycanın daxil olduğu Böyük Orta Şərq geosiyasi məkanında yerləşən dövlətlərlə saxladığı münasibətlər də istisna deyil. Bütün bu məsələlər Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasında daha ətraflı əks olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə Milli Təhlükəsizlik Konsepsiyası təsdiq edilmişdir. Bu konsepsiyaya ölkənin ərazi bütövlüyü, milli maraqların müdafiəsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası kimi vacib məsələlər daxildir. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı, tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyəti, cəmiyyəti və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur (2). Konsepsiyanın Azərbaycan Respublikasının milli maraqlarını təsbit etdiyi 2-ci bəndində göstərilir ki, Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarətdir. Bu maraqlar dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi; Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi; vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının

təmin olunması; demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması; beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsindən ibarətdir. Bundan başqa, burada bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması; təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, tədris, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi; dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi; Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hisslərinin, intellektual potensialının inkişaf etdirilməsi kimi maraqlar da öz əksini tapmışdır.

**Azərbaycan Avropadadır, yoxsa Asiyada?** Politoloqların fikrincə, hər bir dövlətin daxili və xarici vəziyyətini, milli maraq dairələrini və onların təminatını, beynəlxalq aləm və region ölkələri ilə münasibətlərinin taktikasını, vəzifələrini, yollarını, vasitələrini və ehtiyatlarını, onu əhatə edən geosiyasi subyektlərin hərəkətlərini və buna müvafiq olaraq geosiyasi davranışını müəyyən edən Milli İnkişaf Strategiyası olur. Bu strategiya ölkənin həyata keçirdiyi praktiki daxili və xarici siyasətin, ölkədaxili ictimai-siyasi, milli-etnik, sosial-dini sabitliyin, yaxın və uzaq ölkələrlə geosiyasi münasibətlərin davamlı, təhlükəsiz inkişafını təmin edən əsas vasitədir (10, s.19). Yaranmış geosiyasi vəziyyətdə Azərbaycanın qərb istiqamətli mövqeyini xüsusi qeyd etmək lazımdır. Azərbaycan fiziki-coğrafi baxımdan da həm qərbdə, həm də şərqdə yerləşir. Ölkəmizin coğrafi xüsusiyyətlərinə görə Avropa qitəsində yerləşdiyi barədə müxtəlif tədqiqatçılar araşdırmalar aparmışlar. Ona görə də hesab edirik ki, Azərbaycan Şərqlə Qərbin qovuşuğunda yerləşsə də, məhz Avropa ölkəsidir. Yeri gəlmişkən, 2014-cü ilin dekabrında Azərbaycan Milli Elmlər Akademiyasının Həsən Əliyev adına Coğrafiya İnstitutunda keçirilən “Avropa və Asiya qitələrinin sərhədi Azərbaycandan keçir” adlı elmi konfransda Avropa və Asiyanın dəqiqləşdirilmiş yeni sərhədləri müzakirə obyekti olmuşdur. Qeyd edilmişdir ki, dünyanın əksər alim və ekspertlərinin fikrincə, Qafqaz bölgəsində Avropa və Asiya qitələrinin sərhədi şimalda əvvəllər qəbul olduğu kimi Kuma-Manıç çökəkliyindən deyil, Baş Qafqaz sıra dağlarının suayrıcı xətti ilə və sonra Abşeron yarımadası boyunca keçir. Belə olan halda, Azərbaycan ərazisinin təxminən 12 faizi Avropa qitəsinin “payına” düşür. Digər transkontinental ölkələrdən Türkiyə Cümhuriyyəti ərazisinin cəmi 3 faizi, Gürcüstanın isə təxminən 5 faizi Avropada yerləşir. Deməli, Azərbaycan Respublikası transkon-

tinental, yəni iki qitə ərazisində yerləşən ölkə statusuna malikdir (4). Tədbirdə qərara alınmışdır ki, Avropa və Asiya qitələrinin sərhədlərində yuxarıda qeyd edilən düzəlişin edilməsi ilə bağlı Beynəlxalq Coğrafiya İttifaqına müraciət olunsun. Məlum olduğu kimi, 1964-cü ildə bu təşkilatın Londonda keçirilən XX konfransında müvafiq qərar qəbul olunmuşdu və artıq 50 ildir ki, bütün dünyada Avropa və Asiyanın sərhədləri bu qərar əsasında müəyyənləşir [5].

Bir sıra tədqiqatçılar haqlı olaraq Cənubi Qafqazı Avropanın bir hissəsi kimi qeyd edirlər. Bunu Cənubi Qafqaz dövlətlərinin əsas götürdükləri siyasi istiqamət də sübut edir. Lakin bir faktı da nəzərə almaq lazımdır ki, Cənubi Qafqaz tarixi bağlarla Şərqə bağlıdır. Həmçinin, regionun Şərqlə, xüsusən də, Yaxın Şərq regionu ilə sıx əlaqələri vardır və bu da Cənubi Qafqazın Qərb ilə Şərq arasında geosiyasi bir əlaqə kimi rolunu artırır. Cənubi Qafqaz Böyük Yaxın Şərq regionunun müasirləşdirilməsi üçün Avropanın işini asanlaşdıracaq yeganə regiondur (1, s.258).

Böyük Orta Şərq geosiyasi məkanının bir hissəsini təşkil edən və Azərbaycanın da yerləşdiyi Qafqaz regionu dünyanın siyasi, iqtisadi və mədəni həyatında əhəmiyyətli rol oynayır. Bu region həmişə dünya ictimaiyyətinin diqqət mərkəzində olmuşdur. Qafqaz Şərq və Qərb arasında xüsusi coğrafi mövqe tutur və bu ərazi həm Asiyanın, həm də Avropanın bir hissəsini təşkil edir. Asiya və Avropanın qovuşuğunda yerləşən Qafqazda şərq və qərb sivilizasiyası birləşmişdir ki, bu da xalqların mədəniyyətinə, həyat tərzinə, xüsusi mentalitetin formalaşmasına güclü təsir göstərmişdir (14, s.7-8).

Beləliklə, respublikamız bir Avropa dövləti olaraq, Avropa sivil məkanına çıxmaqla, dünya birliyinə çıxmış olur. Geosiyasi mövqe, tarixi təcrübə, mədəni ənənələr, elmi-texniki, iqtisadi və intellektual potensial Azərbaycanın bir Avropa dövləti kimi, bütün Avropa proseslərinin tamhüquqlu iştirakçısı kimi inkişaf etməsi üçün əlverişli zəmin yaradır.

Azərbaycanın geosiyasi mövqeyi onun həm Rusiya və digər MDB dövlətləri ilə, həm Avropa İttifaqı ölkələri ilə, həm də Yaxın Şərq dövlətləri ilə iqtisadi, siyasi, mədəni əlaqələri qoruyub saxlamaq və inkişaf etdirmək zəruriliyini şərtləndirir. Respublikada elmtutumlu məhsulların istehsalının nisbətən yüksək səviyyəsi və ixrac məhsullarının strukturu müasir mərhələdə çoxvektorlu xarici siyasətin həyata keçirilməsi imkanlarını genişləndirir.

Mütəxəssislər hesab edirlər ki, Xəzər dənizinin karbohidrogen ehtiyatlarının istismar edilməsi və müxtəlif marşrutlarla dünya ölkələrinə ötürülməsi Böyük Orta Şərq geosiyasi məkanına daxil olan 3 ölkənin – Azərbaycan, Türkiyə və Gürcüstanın eyni mövqedən çıxış etməsinə səbəb olmuşdur. Belə ki, bu ölkələr arasında regional təhlükəsizlik sahəsində strateji tərəfdaşlıq münasibətləri formalaşmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın planetin unikal bir hissəsində yerləşməsi onu qədim dövrlərdən bəri maraq obyektinə çevirmişdir. Heydər Əliyev yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan

xalqına müraciətində qeyd edirdi ki, Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir... Karvan yollarının üstündə yerləşərək, "Böyük İpək yolu"nun mühüm mərkəzlərindən biri olmuş Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir (8). Müxtəlif ölkələr Azərbaycanla ikitərəfli münasibətlər saxlamağa çalışırdılar. Məsələn, əldə olan sənədlərə əsasən, XVII əsrdə Rusiya Səfəvi imperiyası ilə ticarət əlaqələrinə böyük önəm verirdi. Rusların maraqları bu imperiya ilə münasibətlərin sabitləşməsindən müəyyən asılılığa malik idi. Azərbaycanın Şamaxı, Təbriz, Dərbənd, Bakı, Gəncə kimi şəhələri beynəlxalq ticarətdə mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycanın əlverişli coğrafi mövqeyi, mühüm strateji əhəmiyyəti və təbii sərvətləri təkcə Rusiyanın deyil, həmçinin Qərbi Avropanın uzaq ölkələrinin də diqqətini cəlb edirdi. Bir sıra Avropa ölkələrinin tacirləri hələ XVI əsrin ortalarında burada özləri üçün əlverişli ticarət güzəştləri əldə etməyə çalışırdılar. Rusiyanın rəsmi şəxsləri və tacirləri tərəfindən Azərbaycan şəhərləri haqqında əhəmiyyətli məlumatlar toplanılmışdır ki, bunu da 1627-ci ildə tərtib edilmiş "Böyük Çertyoj kitabı" və XVII əsrin ortalarında nəşr olunmuş "Yol işçisi" sübut edir. Bu sənədlərdə Azərbaycan şəhərlərinin yerləşməsi və onlara aparan yollar ətraflı təsvir edilir. Bu mənbələrin məlumatları rus sahibkarlarının Rusiyada istehsalın artımına təkan verən Azərbaycanla ticarətdə maraqlı olduqlarını sübuta yetirir (15, s. 82-83). XVII əsrin axırlarında Səfəvi imperiyası tənəzzülə gedərkən rus tacirlərinin Şirvana, xüsusən də Şamaxıya axını müşahidə olunurdu. Sonralar I Pyotr hökuməti rus tacirlərinin Şamaxı bazarına olan marağını, eləcə də rus tacirlərinin burada mütəmadi ticarət sövdələşmələrini və Azərbaycanın Rusiyanın cənub sərhədlərinə nisbətən yaxınlığını nəzərə alaraq, ilk Rusiya konsulluğunun məhz Şamaxıda təsdiq olunması haqqında məsələ qaldırmışdı (13, s.13).

**Azərbaycanın geosiyasi perspektivləri.** Azərbaycanın bu nadir fiziki-coğrafi və geosiyasi məkanda yerləşməsi bu gün də ölkəmizin əhəmiyyətinin təkcə region ölkələri üçün deyil, həmçinin digər dövlətlər üçün də vacib olduğunu sübut edir. "Torpağının altı da, üstü də qızıl" olan Azərbaycan əsrarəngiz təbiətinə, təbii ehtiyatlarına, zəhmətkeş insanlarına görə də nadirdir. Azərbaycanın çox zəngin intellektual potensialı və misilsiz xammal ehtiyatları, Avropadan Asiyaya gedən yolda əvəzedilməz coğrafi mövqeyi onun dünya birliyində sanballı yer tutmasına imkan verir. TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Avropa ilə Asiya arasındakı körpü, Böyük İpək yolunun bərpası ölkəmizin qarşısında intensiv inkişaf perspektivləri açır. Məhz öz coğrafi mövqeyimizə görə biz bütün rabitə vasitələrini inkişaf etdirmək və qlobal informasiya sistemi yaradılmasında irəliləyişi təmin etmək üçün misilsiz imkanlara malikik.

Azərbaycanın geosiyasi perspektivi ilə bağlı analitiklərin optimist fikirləri vardır. Məsələn, oilprice.com saytında dərc olunmuş məqalədə göstərilir ki, Cənubi Qafqazın neftlə zəngin ölkəsi Azərbaycan tezliklə çox vacib geosiyasi rol oynaya bilər. Sabit Azərbaycan soyuq qış dövründə Avropanı istiliklə təmin edə biləcək neft və təbii qazın potensial təhlükəsiz mənbəyindən daha çox şey deməkdir. Əhalisinin əksəriyyəti şiə müsəlmanı olan və bununla belə dünyəvi dövlət olan bu keçmiş Sovet ölkəsi getdikcə üzərinə daha önəmli rol götürür. Bu ölkə Qərbə qarşı xeyirxahdır, lakin Şərqin problemlərini də anlayır (16).

Fars körfəzinin neft və qaz hasil edən bəzi ölkələri istisna olmaqla, Yaxın Şərqdəki digər ölkələr ağır vəziyyətdədirlər. Suriya və İraqda hazırda gedən vətəndaş müharibəsi, eləcə də Yəmən və Liviyadakı münaqişələr səbəbindən həmin ölkələrin heç olmasa əvvəlki inkişaf səviyyələrinə gəlib çatması onilliklər tələb edir.

Qeyd etmək məqsədəuyğundur ki, ərəb dünyası ilə qovuşuqda yerləşən Azərbaycan strateji məsələlərin həllində önəmli rol oynaya bilər. Azərbaycan regionda mövcud şəbəkələr və ya tikilməkdə olan boru kəmərləri vasitəsilə neft-qazını satmaqla regionda vəziyyəti sabitləşdirə bilər (17). Azərbaycanın mötədil müsəlmanları yaradılan demokratiyanın ağuşuna atmaqla Qərb və Şərq arasında körpü olmağa kömək edə bilər. Bu, məhz Türkiyənin oynamalı olduğu rol idi, lakin o, bunu edə bilmədi. Bunun əvəzində isə ümidsizlikdən Şərqə yaxınlaşdı və Qərbdən daha da uzaqlaşdı.

Azərbaycan çox mühüm coğrafi-strateji mövqeyə malik olduğundan bu, həm siyasi, həm də iqtisadi əhəmiyyət daşıyır. Ölkəmiz bir çox dünya dövlətləri ilə, Avropa İttifaqı kimi beynəlxalq təşkilatlarla müştərək işlər görərək, tarixi Böyük İpək yolunun bərpa olunmasında – Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi sayılan TRASEKA proqramının hazırlanmasında və yaradılmasında yaxından iştirak etmişdir. 1993-cü ilin may ayında Brüssel şəhərində keçirilmiş konfransda Avropa Komissiyasının TRASEKA proqramının yaradılması təşəbbüsü ilə keçmiş SSRİ-nin səkkiz ölkəsi iştirak etdi (Azərbaycan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan). Göründüyü kimi, bu ölkələrin hamısı Böyük Orta Şərq geosiyasi məkanına daxildir. Sonradan Bolqarıstan, Rumıniya, Türkiyə, Moldova, Ukrayna, İran da TRASEKA proqramına qoşulmuşlar. Hazırda 13 dövlət - Azərbaycan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Bolqarıstan, Rumıniya, Türkiyə, Moldova, Ukrayna və İran təşkilatın üzvüdür. Türkmənistan TRASEKA-nın Əsas Çoxtərəfli Sazişini imzalamamışdır. TRASEKA Hökumətlərarası Komissiyasının 2005-ci ildə Bakıda keçirilən dördüncü illik konfransında Əfqanıstan nümayəndə heyəti Əsas Sazişin yeni iştirakçısı kimi, İran və Pakistan isə bu sənədə qoşulmağa namizədlər qismində iştirak edirdilər (12).

Heydər Əliyev Avropa ilə Asiyanı birləşdirən ən qısa nəqliyyat marşrutlarının kəsişməsində - əlverişli geostrateji mövqedə yerləşən ölkəmizin nəqliy-

yat sektorunun inkişafının müstəsna əhəmiyyət kəsb etdiyini düzgün qiymətləndirirdi. Onun təşəbbüsü sayəsində 7-8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində 9 ölkənin dövlət başçısı (Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna), 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirak etdiyi Tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş, Avropa İttifaqının TRASEKA Proqramı əsasında "Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir (3). Saziş 12 dövlətin – Azərbaycan, Gürcüstan, Ermənistan, Bolqarıstan, Rumıniya, Moldova, Ukrayna, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkiyənin dövlət və hökumət başçıları tərəfindən imzalanmışdır.

Azərbaycan ərəb regionu üçün Avropa, Orta Asiya və Yaxın Şərq arasında strateji körpü və dinamik inkişaf edən tərəfdaşdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində dövlətimizin başçısı, onun xanımı Mehriban Əliyeva və ailə üzvləri islam dünyasının əsas müqəddəs şəhəri Məkkədə ümrə ziyarətində olmuşlar. Onlar həmçinin Mədinə şəhərində də olaraq, burada Peyğəmbər məscidini ziyarət etmişlər. Yaxın Şərqdə dərc olunan qəzetlər və nüfuzlu ərəbdilli telekanallar Azərbaycan Prezidentinin səfərini regional əməkdaşlığın yeni səhifəsi kimi qiymətləndirmişlər.

Müsəlmanların əksəriyyət təşkil etdiyi bir ölkə kimi Azərbaycanda müxtəlif etnik və dini qruplar sülh şəraitində birgə yaşayırlar. Tarix boyu ölkəmizdə bütün xalqları və dinlərin nümayəndələrini həmişə dostluq münasibətləri birləşdirmişdir. Ayrı-ayrı etiqad və inanclara malik insanların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında xalqımıza xas olan mədəni və mənəvi dəyərlər müstəsna dərəcədə əhəmiyyətli rol oynamışdır. Mədəniyyətlərarası dialoqun mühüm şərtlərindən biri etnik separatizm və dini radikalizm nəticəsində meydana çıxan münaqişələrin həll edilməsi, eləcə də regionda və dünyada sülh və əmin-amanlığın tam bərqərar olmasından ibarətdir. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti yalnız Avropa Şurasının üzvü olan bir dövlətin digərinə təcavüzü kimi dəyərləndirilməməlidir, eyni zamanda, böyük bir regionda mədəniyyətlərarası dialoqa, demokratik Avropa dəyərlərinə, ümumbəşəri prinsiplərə, habelə sülh və təhlükəsizliyə ciddi təhdid kimi qiymətləndirilməlidir.

**Nəticə.** Beləliklə, Azərbaycan öz inkişafında dünya sivilizasiyanın vacib dəyərlərinə - demokratiya, şəxsiyyətin azadlığı və qanunun aliliyinə əsaslanır. Xarici siyasət konsepsiyası da ölkəmizin bütün dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı sərfəli münasibətlər yaradılmasına və Azərbaycanın çoxtərəfli diplomatiyada fəal iştirakının təmin edilməsinə istiqamətlənmişdir. Azərbaycan Respublikası dünya xəritəsində mühüm geosiyasi və geoiqtisadi mövqe tutur. Ölkənin ərazisindən əhəmiyyətli nəqliyyat-kommunikasiya xətlərinin keçməsi

Azərbaycanı həm region, həm də qeyri-region ölkələrinin maraq dairəsinə daxil edir. Ona görə də qonşu dövlətlərlə regional səviyyədə düşünülmüş, qarşılıqlı sərfəli, bərabərhüquqlu və dost münasibətləri, eləcə də dünyanın böyük dövlətləri ilə bu cür əməkdaşlıq xarici siyasətimizin, Azərbaycan diplomatiyasının məqsədyönlü vəzifəsidir.

Azərbaycan Respublikası əlverişli coğrafi, geosiyasi, geoiqtisadi, hərbi-geostrateji mövqeyinə; yeritdiyi müstəqil daxili və xarici siyasətinə; zəngin təbii ehtiyatlarına, maddi, mənəvi, əmək və insan resurslarına; Şərq-Qərb alternativ nəqliyyat-kommunikasiya, tranzit və enerji dəhlizlərinin yaradılması sahəsində yürütdüyü transmilli siyasətinə; daxili ictimai-siyasi sabitliyi təmin etməsinə, demokratik dövlət, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı quruculuğu prinsiplərini rəhbər tutmasına; nail olduğu dinamik sosial-iqtisadi inkişafa və gələcək inkişaf potensialına əsasən Böyük Orta Şərqin ən əhəmiyyətli və perspektivli ölkəsi sayıla bilər.

**Ədəbiyyat:**

1. Abbasbəyli A.N. Dünya siyasəti (XX əsrin ikinci yarısı – XXI əsrin əvvəlləri). Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, s.584
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyası / Azərbaycan qəzeti, 24 may 2007, №112
3. Azərbaycanın müasir tarixi (1918-2011-ci illər) [http://www.istoriya.az/modern_history.php]
4. "Avropa və Asiya qitələrinin sərhədi Azərbaycandan keçir" mövzusunda elmi konfrans [http://azertag.az/xeber/819054http://azertag.az/xeber/819054]
5. Avropa və Asiya qitələrinin sərhədinin Azərbaycandan keçməsi ilə bağlı təkliflər müvafiq qurumlara göndəriləcək / Xalq qəzeti, 18 dekabr 2014
6. Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət / Azərbaycan qəzeti, 30 dekabr 2000.
7. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s.612
8. Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət / Azərbaycan qəzeti, 30 dekabr 2000
9. BMT Baş Məclisinin 49-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı [http://lib.aliyev-heritage.org/az/7119983.html]
10. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Letterpress nəşriyyat evi, 2011, s.440

11. Məmmədov T. Qafqaz Albaniyası ilk orta əsrlərdə, Bakı: Təhsil, 2006, s. 400
12. «TRASEKA» Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin rəqabət qabiliyyəti [www.intranslaw.com/jurnal-188.html]
13. Мамедова Г.Н. Русские консулы об Азербайджане (20-60-е годы XVIII в.). Баку: Элм, 1989, с.128
14. Метревели Р. Кавказская цивилизация в контексте глобализации. Стокгольм: Издательский дом CA&CC Press, 2009, с. 108
15. Сеидова Г. Азербайджан во взаимоотношениях Сефевидской империи и Русского государство в XVII веке (по русским источникам). Bakı: Nurlan, 2007, с.156
16. Azerbaijan's Geopolitical Importance Goes Beyond Oil and Gas [http://oilprice.com/Geopolitics/Middle-East/Azerbaijans-Geopolitical-Importance-Goes-Beyond-Oil-and-Gas.html]
17. Klod Salhani: Azərbaycanın geosiyasi əhəmiyyəti [http://az.trend.az/news/politics/2315360.html]